2024

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# İYUL

## Mərkəzi Bankın sədri ilə sığorta şirkətlərinin rəhbərləri arasında görüş keçirilib



Azərbaycan Respublikasının Mərkəzi Bankının sədri Taleh Kazımov ilə sığorta sektorunun rəhbər şəxsləri arasında növbəti dəfə görüş keçirilib. Görüş zamanı sektor üzrə ötən rübə dair göstəricilər və ortamüddətli perspektivdəki strateji təşəbbüslər nəzərdən keçirilib. Həmçinin sığorta sektorunun inkişaf tendensiyaları və çağırışları, potensial imkanları və digər aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## ASA tərəfindən təşkil olunmuş yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı

ASA tərəfindən “Risklərin təminat altına alınmasında həyat sığortalarının rolu” mövzusunda təşkil olunmuş yazı müsabiqəsində 1-ci yerə “ENA.az” xəbər portalının baş redaktoru İlhamə Abdullayeva, 2-ci yerə “Report” İnformasiya Agentliyinin baş redaktor müavini İlahə Məmmədli, 3-cü yerə isə “AZƏRTAC” - Azərbaycan Dövlət İnformasiya Agentliyinibən aparıcı müxbiri Samirə Quliyeva layiq görülüb. "Banco.az" xəbər portalının reportyoru Gülnar Əhmədli, "Vergilər" qəzetinin II dərəcəli müxbiri Fərqanə Sədirova və "GDP.az" xəbər portalının redaktoru Aynur Qəniyeva sertifikat və qiymətli hədiyyələrlə mükafatlandırılıb.




## ASA “I Milli Rəqabət Forumu”nda iştirak etdi



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin təşkilatçılığı ilə "I Milli Rəqabət Forumu" keçirilib. ASA-nın dəvətli olduğu Forumda dövlət qurumları, ictimai təşkilatlar, sahibkarlıq subyektləri və KİV nümayəndələri iştirak ediblər. Forumda milli rəqabət prioritetlərinə həsr olunmuş panel müzakirələri təşkil olunub.

## Azərbaycanda sığorta sahəsində aparılan ilk tədqiqat işi

Azərbaycan Sığortaçılar Assosiasiyasının nəzdindən fəaliyyət göstərən Araşdırma və İnkişaf Mərkəzi və ASA Tədris Mərkəzi tərəfindən “Əhalinin sığorta barədə məlumatlılıq səviyyəsinin ölçülməsi” mövzusunda apardığı ilk tədqiqat işi ilə keçid linkinə daxil olmaqla tanış ola bilərsiniz:

Təqdimat

## 2024-cü ilin ilk yarısında sığortalı zərər 60 milyard dolları ötüb

"Munich Re"-nin 2024-cü ilin ilk yarısına olan qlobal təbii fəlakət hesabatına görə, ilin ilk 6 ayında 120 milyard dollar həcmində zərər qeydə alınıb ki, bunun da 62 milyard dolları sığortalı olub. Hesabatda şiddətli fırtınalar, daşqınlar və meşə yanğınları nəticəsində dəyən zərərlərin payının artdığı vurğulanır. Bu fəlakətlər ümumi zərərin 68%-ni, sığortalanmış zərərin isə 76%-ni təşkil edir.



## Swiss Re: İqtisadi şərtlərlə əlaqədar olaraq sığortaya tələbat artacaq



Qlobal təkrarsığorta şirkəti Swiss Re "Dünya sığortası: yeni həyat ümidi ilə qlobal dayanıqlığın gücləndirilməsi" adlı Sigma hesabatını dərc edib. Hesabata görə, mövcud iqtisadi şərait sığorta sektoruna yeni həyat ümidi yaradıb. Hesabatda iqtisadi dayanıqlığın yavaşlayan, lakin hələ də güclü iqtisadi artım və yüksək faiz dərəcələri ilə əks olunduğu və bunun sektorun gəlirliliyini xeyli artırdığı bildirilərək, gəlirli qazanc rejimində olan sığorta sektorunun daha çox kapital cəlb edəcəyi proqnozlaşdırılır.

Bu, sektorda artımı təmin edəcək və risklərin ötürülməsi imkanlarını genişləndirəcək. Beləliklə, sektor dünyanın bir çox regionunda mövcud olan müdafiə boşluqlarının daralmasına daha yaxşı töhfə verə biləcək.

## Tesla Çində sığorta brokerini qeydiyyatdan keçirib

Reuters xəbər verir ki, Amerika avtomobil istehsalçısı Çində sığorta məhsullarını satmaq üçün icazə almağa yenidən cəhd edib. Pekinin mərkəzində yerləşən broker şirkət 50 milyon yuan (6,92 milyon dollar) nizamnamə kapitalı ilə yaradılıb.




Şirkətin yaradılması, elektrikli nəqliyyat vasitələrinin təmiri bahalığı və bunun ənənəvi mühərrikli nəqliyyat vasitələrinə qoyulan tələblərə öyrəşmiş sığortaçılar üçün problemlər yaratdığı ilə əlaqələndirilir.

Bildirilir ki, sığortanı birbaşa istehlakçılara satmaqla, Tesla, potensial olaraq elektrik avtomobilləri üçün daha ucuz sığorta məhsulları təklif edə biləcək.

## "A-Qroup Sığorta Şirkəti" ASC







*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***19 734 AZN***



## " Azərbaycan Sənaye Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Qısa qapanma nəticəsində avtomobil tam yanaraq yararsız vəziyyətə düşmüşdür*
*Sığorta məbləği:* ***23 400 AZN***

## "İpək Yolu Sığorta" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***4 450 AZN***



## "Qala Sığorta" ASC

*Sığorta növü: Avtomobillərin kompleks sığortası*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***10 515 AZN***



"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Bədbəxt hadisə nəticəsində müddətsiz əlillik alması*
*Sığorta məbləği: **27 270,18 AZN***

"Meqa Sığorta" ASC





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği: **25 932 AZN***

| Sığorta sinifləri | 2023 II rüb | | 2024 II rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| Könüllü sığortalar üzrə - cəmi: | 470,656.0 | 174,824.2 | 541,063.9 | 294,750.8 | 15.0% | 68.6% |
| Həyat sığortası üzrə, o cümlədən: | 288,782.6 | 127,278.5 | 357,728.2 | 233,093.5 | 23.9% | 83.1% |
| Həyatın yaşam sığortası | 273,665.5 | 126,512.7 | 337,898.5 | 231,754.6 | 23.5% | 83.2% |
| Həyatın ölüm halından sığortası | 13,231.1 | 744.7 | 15,623.7 | 1,084.4 | 18.1% | 45.6% |
| Əmək qabiliyyətinin sığortası | 797.5 | 9.5 | 1,935.5 | 85.8 | 142.7% | 801.2% |
| Sağalmaz xəstəliklərdən sığorta | 1,088.5 | 11.6 | 2,270.5 | 168.8 | 108.6% | 1361.0% |
| Qeyri-həyat sığortası üzrə, o cümlədən | 181,873.5 | 47,545.8 | 183,335.7 | 61,657.3 | 0.8% | 29.7% |
| Şəxsi sığorta, o cümlədən: | 86,230.3 | 35,345.7 | 85,525.6 | 45,427.8 | -0.8% | 28.5% |
| Tibbi sığorta | 81,608.0 | 35,145.8 | 81,045.5 | 45,059.8 | -0.7% | 28.2% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 2,736.2 | 116.2 | 2,437.6 | 136.8 | -10.9% | 17.8% |
| Fərdi qəza və xəstəlik sığortası | 1,886.0 | 83.7 | 2,042.6 | 231.2 | 8.3% | 176.4% |
| Əmlak sığortası, o cümlədən: | 95,643.2 | 12,200.1 | 97,810.0 | 16,229.5 | 2.3% | 33.0% |
| Əmlakın sığortası, o cümlədən: | 82,929.1 | 12,112.9 | 83,116.1 | 16,109.9 | 0.2% | 33.0% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 1,970.8 | 0.0 | 5,692.1 | 793.1 | 188.8% | |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 38,605.0 | 1,708.3 | 31,760.2 | 2,218.4 | -17.7% | 29.9% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 22,380.6 | 8,926.9 | 27,390.0 | 9,840.0 | 22.4% | 10.2% |
| Yüklərin (nəqliyyat) sığortası | 3,151.0 | 67.0 | 3,693.0 | 306.7 | 17.2% | 357.8% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 2,235.5 | 558.8 | 1,108.6 | 693.6 | -50.4% | 24.1% |
| Su nəqliyyat vasitələrinin sığortası | 3,465.2 | 109.6 | 3,147.8 | 8.5 | -9.2% | -92.2% |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 32.5 | 0.0 | 49.8 | 0.0 | 53.1% | |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 11,001.0 | 742.3 | 10,189.0 | 2,249.6 | -7.4% | 203.1% |
| - Işçilərin dələduzluğu sığortası | 87.4 | 0.0 | 85.6 | 0.0 | -2.1% | |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 11,020.1 | 86.8 | 11,937.9 | 82.1 | 8.3% | -5.4% |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 69.2 | 2.0 | 49.3 | 4.8 | -28.7% | 137.3% |
| Ümumi mülki məsuliyyətin sığortası | 7,968.2 | 73.0 | 8,099.2 | 50.5 | 1.6% | -30.8% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 1,285.1 | 11.7 | 1,714.4 | 23.6 | 33.4% | 101.4% |
| Peşə məsuliyyətinin sığortası | 995.9 | 0.0 | 1,476.5 | 0.0 | 48.3% | |
| Işəgötürənin məsuliyyət sığortası | 569.0 | 0.0 | 537.5 | 0.0 | -5.5% | |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 45.5 | 0.0 | 25.1 | 3.2 | -44.9% | |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 87.2 | 0.0 | 0.0 | 0.0 | -100.0% | |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 0.0 | 0.0 | 35.8 | 0.0 | | |
| Kreditlərin sığortası | 1,248.5 | 0.5 | 2,275.2 | 37.5 | 82.2% | 7775.5% |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 445.5 | 0.0 | 480.9 | 0.0 | 7.9% | |
| İcbari sığortalar üzrə - cəmi: | 178,289.4 | 50,207.8 | 184,097.8 | 61,333.2 | 3.3% | 22.2% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 44,484.6 | 1,270.3 | 47,309.8 | 1,876.0 | 6.4% | 47.7% |
| Qeyri-həyat sığortası üzrə | 133,804.8 | 48,937.5 | 136,788.0 | 59,457.3 | 2.2% | 21.5% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 76,874.5 | 46,493.5 | 79,640.9 | 57,860.5 | 3.6% | 24.4% |
| Daşınmaz əmlakın icbari sığortası | 56,110.9 | 2,177.7 | 56,273.0 | 1,188.3 | 0.3% | -45.4% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 750.0 | 8.5 | 752.3 | 99.6 | 0.3% | 1072.9% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 47.9 | 0.0 | 90.7 | 0.0 | 89.3% | |
| Digər icbari sığorta növləri | 21.6 | 257.9 | 31.1 | 308.9 | 44.0% | 19.8% |
| YEKUN | **648,945** | **225,032** | **725,162** | **356,084** | **11.7%** | **58.2%** |

Azərbaycan sığorta bazarında 2024-cü ilin ıı rübünün 2023-cü ilin mütənasib dövrü ilə müqayisə etdikdə, sığorta haqlarının 11.7% artaraq 648,945 min manatdan, 725,162 min manata qədər yüksəldiyi müşahidə olunur.

Bu artımda əsas pay sahibi olan sığorta növləri həyatın yaşam sığortası (64,233 min manat), İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (2,852 min manat), avtonəqliyyat vasitələrinin sığortası (5,009 min manat) növləridir.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2024-cü ilin II rübünün sığorta haqlarının həcmi 2023-cü ilin II rübü ilə müqayisədə 11.7%, ödənişlər isə 58.2% artıb. Lakin ödənişlər barəsində nəticə çıxarmazdan əvvəl, ödənişlərin strukturunu nəzərdən keçirmək vacibdir. Ödənişlərin bu qədər kəskin artımının əsas səbəbi kreditlərin sığortası növü istiqamətində ödənişlərin artımıdır. Bu istiqamətdə ikinci yerdə sağalmaz xəstəliklərdən sığorta növü yer alır.






Bazar payı
(sığorta ödənişləri üzrə - 2023 II rüb)




Bazar payı
(sığorta ödənişləri üzrə - 2024 II rüb)




2024-cü ilin yanvar - iyun aylarının 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisəsindən məlum olur ki, yığımlarda könüllü sığorta növü 15% (70,408 min manat artım) artaraq 541,064 min manat olmuşdur. Ödənişlərin bölgüsündə isə könüllü sığorta üzrə ödənişlərin 68% (119,926 min manat artım) 174,824 min manatdan 294,751 min manata artaraq, bazar payının 83%-ni əhatə etdiyi müşahidə olunur.

**Könüllü** TOP 5 – 2023 II rüb
Sığorta haqları üzrə




**Könüllü** TOP 5 – 2023 II rüb
Sığorta ödənişləri üzrə



**İcbari** TOP 3 – 2024 II rüb
Sığorta haqları üzrə




**İcbari** TOP 3 – 2023 II rüb
Sığorta ödənişlər üzrə




Müşahidə olunur ki, 2023-ci illə müqayisədə 2024-cü ildə həyatın yaşam sığortası növünün payı 21 mln manat artmış və TOP 5 könüllü sığorta məhsulları arasında 52% təşkil etmişdir. Bu göstərici sığorta ödənişlərində 77% təşkil etmişdir.

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2023 II rüb – 2024 II rüb **haqlar**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 64,233 |
| 2 | Həyatın ölüm halından sığortası | 2,393 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 1,138 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 1,182 |
| 5 | İBHİS | 2,825 |



# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023 II rüb – 2024 II rüb **ödənişlər**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 105,242 |
| 2 | Həyatın ölüm halından sığortası | 339,7 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 76,3 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 157,2 |
| 5 | İBHİS | 605,6 |




2024-cü ilin II rübünün ötən ilin eyni dövrünə nisbətən artmasında əsas pay sahibi həyat sığortası məhsullarıdır ki, bu da bütün sığorta bazarının 56%-ni (405,038 min manat) təşkil edir. Qeyri-həyat sığortasında isə bu pay 44% (320,124 min manat) təşkil edir. Ödənişlərdə isə ümumi ödənişlərin 66%-i (234,969 min manat) həyat sığortasının, 34%-i (121,115 min manat) isə qeyri-həyat sığorta növlərinin payına düşür.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 II rüb **haqlar**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Fərdi qəza və xəstəlik sığortası | 156.6 |
| Əmlakın sığortası,  o cümlədən: | 187.1 |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 3,721.3 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 5,009.4 |
| Yüklərin (nəqliyyat) sığortası | 542.1 |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 17.3 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 917.8 |
| Ümumi mülki məsuliyyətin sığortası | 131.0 |
| AVSMMS | 429.3 |
| Peşə məsuliyyətinin sığortası | 480.6 |
| Kreditlərin sığortası | 1,026.7 |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 35.3 |
| AVSMMİS | 2,766.4 |
| DƏİS | 162.1 |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 2.4 |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 42.8 |
| Digər icbari sığorta növləri | 9.5 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | -562.6 |
| Xaricə səfər edən vətəndaşların sığortası | -298.7 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | -6,844.8 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | -1,126.9 |
| Su nəqliyyat vasitələrinin sığortası | -317.4 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | -812.1 |
| İşçilərin dələduzluğu sığortası | -1.9 |
| HNVSMMS | -19.9 |
| Işəgötürənin məsuliyyət sığortası | -31.4 |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | -20.4 |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -87.2 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 II rüb **ödənişlər**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | 9,913.9 |
| Xaricə səfər edən vətəndaşların sığortası | 20.7 |
| Fərdi qəza və xəstəlik sığortası | 147.6 |
| Əmlakın sığortası, o cümlədən: | 3,997.0 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 510.1 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 913.1 |
| Yüklərin (nəqliyyat) sığortası | 239.7 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 134.8 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 1,507.3 |
| HNVSMMS | 2.8 |
| AVSMMS | 11.9 |
| Kreditlərin sığortası | 37.1 |
| AVSMMİS | 11,367.0 |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 91.1 |
| Digər icbari sığorta növləri | 51.0 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Su nəqliyyat vasitələrinin sığortası | -101.1 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | -4.7 |
| Ümumi mülki məsuliyyətin sığortası | -22.5 |
| DƏİS | -989.4 |

# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2023 II rüb | | 2024 II rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 32,957 | 12,810 | 44,967 | 26,550 | 36.44% | 107.27% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 4,669 | 907 | 4,973 | 3,140 | 6.51% | 246.11% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 11,861 | 1,445 | 10,945 | 3,192 | -7.72% | 120.99% |
| 4 | "Meqa Həyat" Sığorta ASC | 1,952 | 7 | 4,346 | 117 | 122.61% | 1643.19% |
| 5 | "Paşa Həyat Sığorta" ASC | 281,828 | 113,381 | 339,807 | 201,969 | 20.57% | 78.13% |
| Lisenziyası ləğv edilmiş sığortaçılar | | 20,852 | 9,648 | - | 10,353 | -100.00% | 7.31% |
| YEKUN | | 340,634 | 139,560 | 410,852 | 236,881 | 20.61% | 69.73% |

## Həyat sığorta şirkətləri dinamika (sığorta haqları üzrə)






# Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2023 II rüb | | 2024 II rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 10,015 | 7,316 | 8,776 | 6,923 | -12.38% | -5.37% |
| 2 | "Aqrar Sığorta"ASC | 13,154 | 1,175 | 11,184 | 2,851 | -14.98% | 142.73% |
| 3 | "AtaSığorta" ASC | 5,411 | 1,423 | 5,173 | 1,929 | -4.40% | 35.56% |
| 4 | "Atəşgah" Sığorta Şirkəti ASC | 16,956 | 8,457 | 26,767 | 10,131 | 57.86% | 19.79% |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 9,353 | 3,341 | 13,295 | 4,352 | 42.15% | 30.24% |
| 6 | "AzSığorta" ASC | 4,816 | 5,351 | 5,226 | 872 | 8.53% | -83.69% |
| 7 | "Bakı Sığorta" ASC | 2,882 | 1,269 | 1,356 | 974 | -52.96% | -23.23% |
| 8 | "Xalq Sığorta" ASC | 12,037 | 11,918 | 10,787 | 5,052 | -10.38% | -57.61% |
| 9 | "İpək Yolu Sığorta" ASC | 1,574 | 90 | 1,546 | 236 | -1.77% | 162.90% |
| 10 | "Qala Sığorta" ASC | 39,311 | 4,556 | 47,009 | 6,724 | 19.58% | 47.57% |
| 11 | "Meqa Sığorta" ASC | 15,893 | 4,156 | 17,884 | 6,388 | 12.52% | 53.70% |
| 12 | "Paşa Sığorta" ASC | 163,423 | 37,784 | 171,121 | 64,330 | 4.71% | 70.26% |
| Lisenziyası ləğv edilmiş sığortaçılar | | 20,852 | 9,648 | - | 10,353 | -100.00% | 7.31% |
| YEKUN | | 315,678 | 96,483 | 320,124 | 121,115 | 1.41% | 25.53% |

Ödənişlərə münasibətdə 2024-cü ilin II rübündə vəziyyət növbəti qrafikadakı kimidir. Sığorta ödənişlərinə görə bazarda 74.79% pay ilə PAŞA Sığorta Qrupu birinci yerdə qərarlaşdı. İkinci yeri 10.30% payla Atəşgah Sığorta Qrupu, üçüncü yeri Qala Sığorta Qrupu 2.78% payla, dördüncü yeri 2.30% Xalq Sığorta Qrupu tutdu. 1.83%-lə Meqa Sığorta Qrupu payla beşinci yerdədir. Beləliklə, biz bazar üzrə bütün sığorta ödənişlərinin 92%-nin 10 sığorta şirkətinin əlində cəmləşdiyini görə bilirik.

## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)




## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



# “AtaSığorta” ASC – 20

21 iyul 2004-cü ildə rəsmi dövlət qeydiyyatından keçib və həmin ilin sentyabr ayının 3-dən etibarən tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Nizamnamə kapitalı 15 950 000 AZN təşkil edir.

Şirkət 26 könüllü və 4 icbari növ üzrə sığorta xidmətləri təqdim edir. Bu növlər Əmlak sığortası, Nəqliyyat vasitələrinin sığortası, Nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari və könüllü sığortası, Sürücü və sərnişinlərin bədbəxt hadisələrdən sığortası, Üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, Yüklərin sığortası, İnşaat sığortası, İşəgötürənin məsuliyyətinin sığortası, Tibbi sığorta, Fərdi qəza sığortası, Bank və bank fəaliyyətinin sığortası və s.-dir.

Şirkətin 7 filialı (“Qərb”, “Şirvan”, “Xətai”, “Göyçay”, “Əcəmi”, “Sumqayıt”, 16 nümayəndəliyi (“Şamaxı”, “Gədəbəy”, “Xocasən”, “Salyan”, “Sahil”, “Lerik”, “Bayıl”, “Quba”, “Gəncə-Kəpəz”, “Ağdaş”, “Bərdə”, “Gənclik”, “Sumqayıt”, “Yasamal”, “Ucar”, “Aran”) və 30-dan artıq satış ofisi fəaliyyət göstərir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “AtaSığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

AtaSığorta



# “Qala Həyat” Sığorta Şirkəti ASC – 16

7 iyul 2008-ci il tarixində “Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti adı ilə dövlət qeydiyyatına alınıb. Azərbaycanda vətəndaşların sosial müdafiəsinə yönəlmiş “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə, əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Qanun imzalandığı tarixdən – 30.11.2010-cu ildən “Qala Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti adı ilə həyat sığorta sahəsi üzrə fəaliyyətə başlayıb.

Şirkət, müştərilərinə İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta, Kredit üzrə borcalanın həyat sığortası, “Zərərsiz və İtkisiz” sığorta məhsulu, “Kapital” Sığorta Məhsulu, “Klassik Həyat sığortası” məhsulu, Korporativ müştərilər üçün “Sağalmaz Xəstəliklərdən Sığorta” məhsulu, Əmək qabiliyyətinin itirilməsi halından sığorta olunanın həyat sığortası və Təminatlı gələcək kimi sığorta məhsulları təklif edir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Qala Həyat” Sığorta Şirkəti ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az